**UOT 94 (479.24)**
**https://doi.org/10.59849/2218-4783.2025.1.46**

**NURLANA ƏLİYEVA**

# BÖYÜK DÖVLƏTLƏRİN NAXÇIVAN SİYASƏTİ VƏ BUNUN BÖLGƏNİN TARİXİ COĞRAFİYASINA TƏSİRİ (1918-1921-Cİ İLLƏR)

*1918-ci ilin mayında müsəlman şərqində ilk dəfə yaradılmış yeni suveren dövlət – Azərbaycan Xalq Cümhuriyyəti çətin və mürəkkəb şəraitdə 23 ay yaşayıb fəaliyyət göstərdi. Bu Cümhuriyyət Rusiya ilə yanaşı dünyanın böyük dövlətlərinin – ABŞ, İngiltərə və Fransanın siyasi, iqtisadi siyasətlərinin məngənəsində mübarizə aparmalı oldu, öz suverenliyini qoruyub saxlamaq üçün bütün vasitələrə əl atdı, bu yolda çox mürəkkəb problemlərlə üzləşdi. Bu dövlətlərin təzyiqi altında 1918-ci il mayın 29-da Azərbaycan Milli Şurası Azərbaycan-Ermənistan arasındakı sərhəd problemini müzakirə edərkən öz suverenliyini qoruyub saxlamaq naminə İrəvanın ermənilərə verilməsi qərarını çıxarmağa məcbur oldu və bu qərarı ürək ağrısı ilə "tarixi zərurət", "labüd bəla" hesab etdi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə qonşu ölkələr Azərbaycana qarşı bir sıra ərazi iddiaları irəli sürürdü. Bu zaman onun ərazisi 113.895,97 kv.km idi. Onun 97.296,67 kv. km-i mübahisəsiz, 16.598,30 kv km-i mübahisəli zonaları əhatə edirdi. Belə məsələləri həll etmək üçün ilk öncə 1918-ci il iyunun 4-də Osmanlı imperiyası ilə Azərbaycan Cümhuriyyəti arasında dostluq haqqında müqavilə imzalandı. Batum müqaviləsinin ikinci maddəsində Azərbaycan, Gürcüstan və Ermənistan arasında sərhəd xətti müəyyən edilirdi. Batum müqaviləsinə görə Azərbaycan da ərazi itkilərinə məruz qaldı. 1921-ci ilin martın 12-də Moskva müqaviləsi imzalandı. Moskva müqaviləsindən sonra bəzi əraziləri dəqiqləşdirmək üçün Sovet Rusiyası nümayəndəsinin iştirakı ilə Türkiyə üç Cənubi Qafqaz respublikası arasında 13 oktyabr 1921-ci ildə Qarsda müqavilə imzaladı. Beləliklə, Moskva və Qars müqavilələri həm də Naxçıvanın muxtariyyət statusunu da həll etmiş oldu.*

**Açar sözlər:** *Naxçıvan, Moskva müqaviləsi, Qars müqaviləsi, muxtariyyət statusu, Azərbaycan Xalq Cümhuriyyəti, Osmanlı imperiyası, mübahisəli zona, tarixi coğrafiya.*

**Giriş.** 1918-ci ilin mayında Cənubi Qafqazda üç müstəqil respublikanın yaradıldığı elan edildi. Təbii ki, Naxçıvan diyarı əhalisinin tarixi taleyi hər zaman Azərbaycan dövlətləri ilə bağlı olmuşdur. Diyarın əhalisi gələcək taleyini yeni Azərbaycan Xalq Cümhuriyyəti ilə birlikdə görürdü. Azərbaycan Xalq Cümhuriyyəti də bu bölgəni özünün ayrılmaz tərkib hissəsi hesab edirdi. Məlum olduğu kimi, 1918-ci il mayın 29-da Azərbaycan Milli Şurası sərhəd məsələlərini müzakirə edərkən öz suverenliyini qoruyub saxlamaq naminə İrəvanın ermənilərə verilməsi qərarını çıxarmağa məcbur oldu və bu qərarı ürək ağrısı ilə "tarixi zərurət ", "labüd bəla" hesab etdi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə qonşu ölkələr Azərbaycana qarşı bir sıra ərazi iddiaları irəli sürürdü. Bu zaman onun ərazisi 113.895,97 $km^2$ idi. Yeni cümhuriyyətin 97.296,67 $km^2$-i mübahisəsiz ərazilər hesab edilirdi. Ərazinin 16.598,30 $km^2$-i isə mübahisəli zonaları əhatə edirdi [6, s. 6].

Azərbaycan Xalq Cümhuriyyəti ölkənin ərazi bütövlüyünü və suverenliyini qoruyub saxlamaq üçün çox çətin şəraitdə mübarizə aparır, bütün imkanlardan istifadə edir, taleyüklü məsələlərin həllinə çalışırdı. Belə məsələləri həll etmək üçün ilk öncə 1918-ci il iyunun 4-də Osmanlı imperiyası ilə Azərbaycan Xalq Cümhuriyyəti arasında dostluq haqqında Batumda müqavilə imzalandı. Bu, Azərbaycan Xalq Cümhuriyyətinin hər hansı bir xarici dövlətlə bağladığı ilk müqavilə idi. Batum müqaviləsinin ikinci maddəsində Azərbaycan, Gürcüstan və Ermənistan arasında sərhəd xətti müəyyən olundu [1, s. 437-438]. Batum müqaviləsinə görə, Azərbaycan da ərazi itkilərinə məruz qaldı. Müqaviləyə görə, Şərur-Dərələyəz qəzasının Şərur hissəsi və Ordubad istisna olmaqla Naxçıvan qəzası Osmanlı dövlətinə verildi. Bundan başqa İrəvan qəzasının Qəmərli, Uluxanlı, Vedibasar bölgələri Osmanlı Türkiyəsinin tərkibinə keçdi [9, s. 85].

Akademik İ.Hacıyev Batum müqaviləsinin şərtlərinə daha geniş və dəqiq şəkildə toxunaraq yazır: "Türkiyə hərbi əməliyyatlar meydanında verdiyi qurbanların əvəzi olaraq bir sıra yeni ərazilər və imtiyazlar tələb etdi. Bu tələblərə Tiflis quberniyasının Axıska və Axalkələk qəzaları, İrəvan quberniyasının Aleksandropol (Gümrü) və Sürməli qəzaları, Eçmiədzin qəzasının Sərdarabad hissəsi, İrəvan qəzasının cənub və cənub-qərb hissəsini təşkil edən Kəmərli (Gərnibasar), Uluxanlı (Zəngi-

basar) və Vedibasar bölgələri, Şərur-Dərələyəz qəzasının Şərur hissəsi və Ordubad istisna olmaqla Naxçıvan qəzası, habelə Qars-Aleksandropol-Culfa dəmir yolu daxil idi. Bundan əlavə, İngiltərəyə qarşı müharibə davam etdiyi müddətdə Türkiyəyə Cənubi Qafqazın bütün dəmir yol şəbəkəsindən istifadə etmək hüququ verilməli idi" [5, s. 33-41].

Osmanlı dövləti Batum müqaviləsi ilə əldə etdiyi ərazilərə yiyələnməyə başladı. 1918-ci ilin iyulun 20-də Osmanlı ordusu Naxçıvana daxil oldu. Yaranmış qarışıqlıq dövründə fürsətdən istifadə edərək bölgəyə soxulmuş, yerli əhaliyə qarşı qanlı qırğınlar törətmiş erməni hərbi dəstələrinin müqaviməti qırıldı. Beləliklə, Naxçıvanda türk bayrağı dalğalandı. 11-ci alay komandanı Sürəyya bəy Naxçıvan Məhəlli hökumət rəisi təyin edilirdi. Bir müddət keçdikdən sonra onu Ali Şefik bəy əvəz etdi. 1918-ci il avqust ayının 15-də Osmanlı sultanı Mehmed Vahiddədin tərəfindən "Evliye-i Selase" əhalisinə yayınlanan bir bəyannamə ilə bu torpaqlar rəsmən Osmanlı imperiyasına ilhaq edildi. Tarixçi V.Qafarov yazır ki, həmin ilin sentyabrın 14-də bölgədə idarəçilik orqanlarının qurulması haqqında qərar qəbul edildi. Bu qərara görə, Qars, Ərdahan, Batum və ətraf ərazilərdə (Batum müqaviləsinə görə Osmanlı dövlətinə keçən ərazilərə Naxçıvan da daxildir – N.Ə) Batum və Qars livalarından ibarət Batum vilayəti təşkil edildi [9, s. 87]. Naxçıvan da qəza olaraq Qars livasının tərkibində Batum vilayətinə daxil olmuşdur.

I Dünya müharibəsinin sonlarında Antanta dövlətləri 1918-ci il oktyabrın 30-da Osmanlı dövləti ilə Mudros barışığını imzaladı. Bu müqaviləyə görə, Osmanlı qüvvələri Naxçıvanı tərk etməyə məcbur olmuşdu. Belə bir vəziyyətdə Naxçıvan əhalisi müdafiəsiz qalmışdı. Yerli əhali erməni təcavüzündən qorunmaq üçün 1918-ci ilin noyabrında Araz-Türk Respublikasının yaradıldığını elan etdi. Bununla əlaqəli bir çox tədqiqatçı araşdırma apardığından [1, s. 106, 2, s. 37, 8, s. 35] və tərəfimizdən ayrıca bir məqalə yazıldığından bu məsələyə təkrar toxunmayacağıq [13, s. 82-87].

**Naxçıvan general-qubernatorluğu.** Çox maraqlı haldır ki, hələ Araz-Türk Respublikasının mövcud olduğu bir zamanda Azərbaycan hökuməti M.Mirbağırovun və Naxçıvanın Müvəqqəti hökumətinin işlər müdiri B.Naxçıvanskinin təklifləri əsasında 1919-cu il fevralın 28-də Naxçıvan general-qubernatorluğu yaratdı [6, s. 12]. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin 28 fevral 1919-cu il verdiyi qərarı ilə yaradılmış Naxçıvan general-qubernatorluğu (sənədlərdə bu qubernatorluq həm də "Cənub-Qərbi Azərbaycan general-qubernatorluğu" adlanır – N.Ə.) Naxçıvan, Ordubad, Vedibasar, Şərur-Dərələyəz rayonlarını əhatə edirdi. AMEA müxbir üzvü H.Səfərli bu barədə yazır: "Qubernatorluğun mərkəzi Naxçıvan şəhəri olmaqla ərazisi Naxçıvan, Ordubad, Şərur-Dərələyəz və Vedibasar torpaqlarını əhatə edirdi. Qısa müddət mövcud olmasına baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Naxçıvanın tarixi torpaqlarının bir hissəsini bir general-qubernatorluqda birləşdirmişdi" [14, s. 28].

Bəhram xan Naxçıvanski general-qubernator, Kərim xan İrəvanski hərbi işlər üzrə, Hacı Mehdi Bağırov isə mülki işlər üzrə onun müavinləri təyin olunmuşdular. Siyasi şəraitin mürəkkəbliyi, ilk növbədə isə Ermənistan daşnak hökumətinin fitnəkar hərəkətləri üzündən yüksək vəzifəli şəxslərin Naxçıvana gələrək vaxtında öz vəzifələrinin icrasına başlaya bilməmələri general-qubernatorluğun işində ciddi çətinliklər yaratmışdı. Bütün bunlara baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyət hökuməti general-qubernatorluğun fəaliyyətinin bir an da olsun dayanmasına yol verməmişdi. 1919-cu ilin avqustunda qısa müddət Ordubadda fəaliyyət göstərməyə məcbur olan general-qubernatorluğun iqamətgahı sonra yenidən Naxçıvan şəhərinə köçürülmüşdü. Naxçıvan general-qubernatorluğu o zamankı mürəkkəb şəraitlə bağlı səbəblər üzündən daha geniş və səmərəli fəaliyyət göstərə bilməsə də, bölgənin erməni təcavüzündən müdafiəsində, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ilə əlaqə yaradılmasında və möhkəmləndirilməsində mühüm rol oynamışdı [11, s. 84]. Naxçıvanda Azərbaycan Xalq Cümhuriyyətinə tabe olan general-qubernatorluq yaradılsa da, bölgə hələ 1919-cu ilin yanvarında ingilislər tərəfindən işğal edilmişdi [15, s. 40]. Naxçıvan və Şərurun Ermənistan hökumətinin tabeliyinə verilməsini bildirən ingilislər ermənilərin öz işğalçılıq siyasətini həyata keçirmələrinə şərait yaratdılar. Daşnaklar ingilis zabitlərinin bilavasitə köməyi və iştirakı ilə 1919-cu ilin iyununda Naxçıvanın bir hissəsini tutsalar da, Naxçıvan Milli Komitəsinin hərbi hissə-

ləri daşnakların nizami qoşununu əzərək onları Naxçıvan ərazisindən kənara atdılar. Yerlərdə hakimiyyət Milli Şuranın əlində idi [16, s. 33].

İngilislər Naxçıvanda olduğu müddətdə Naxçıvana gələn vali Lotn Şərur istiqamətində müəyyənləşdirdikləri sərhədlə əlaqədar bir bəyannamə nəşr etdirdi. Buna əsasən, regionun sərhədi Vedinin böyük bir hissəsini içinə almış, xeyli miqdarda genişlənmişdi. Erməni sərhədi isə Qəmərlinin yanında yerləşən Yuva (sonralar ermənilər bu kəndin adını dəyişdirib Şaumyan qoydular) kəndi oldu. Sədərək ilə Yuva arasında ingilislərin nəzarəti altında neytral zona yaradılmış və burada vəzifələr müsəlmanlara verilmişdi. Sədərəkdən Ordubada qədər olan bölgə Naxçıvanın nəzarəti altında olacaqdı. Ancaq, buradakı hökumətə ingilis valisi nəzarət edəcəkdi. İngilislər bir tərəfdən Naxçıvanın yerli azərbaycanlı əhalisi ilə ermənilər arasında ortaya çıxacaq böyük müharibənin qarşısını almaq üçün bu cür sərhəd müəyyənləşdirir, digər tərəfdən regionu öz nəzarətləri altına alırdı [3, s. 148].

**İngilis və ABŞ general-qubernatorluqları.** 20 yanvar 1919-cu ildə Milli Şura üzvləri ilə ingilis heyəti müştərək bir yığıncaq keçirdi. Türk tarixçisi İbrahim Ethem Atnur yazır ki, yığıncaqda bir sıra qərarlar qəbul edilmişdi. Qəbul edilən qərarların məzmununa diqqət yetirildiyi zaman məlum olur ki, bunların bir çoxu birbaşa Naxçıvan diyarının hüdudlarının müəyyənləşdirilməsi, dəyişdirilməsi ilə əlaqədar olmuşdur. Belə ki, razılaşmanın ikinci bəndinə əsasən "Culfadan Sədərəyə qədər Naxçıvan əraziləri türklərin" (azərbaycanlıların – N.Ə.) "Sədərəkdən İrəvana qədər hissə isə ermənilərin" nəzarətində olacaqdı.

Üçüncü bənddə azərbaycanlılara aid olduğu hesab edilən ərazinin sərhədi Arazdəyən, ermənilərin sərhəddi isə İrəvan Yengicəsi müəyyənləşdirildi [1, s. 157].

Naxçıvan və Şərur-Dərələyəz qəzaları xüsusi zona təşkil edir və həmin yerlərdə bütün idarəçilik işlərinə cavab verə biləcək Amerika general-qubernatorluğu təşkil olunacaqdır [7, s. 13].

Bu plana görə, ABŞ Ali Komissarı V.Haskel Qarabağı və Zəngəzuru Azərbaycanın ayrılmaz hissəsi hesab edirdi. Bunun müqabilində o, təklif edirdi ki, İrəvan quberniyasının cənub hissəsində olan Naxçıvan və Şərur-Dərələyəz qəzalarında neytral zona yaradılmalıdır. Həmin neytral zona Batumda olan ingilis general-qubernatorluğuna bənzər olmalı idi. Naxçıvan və Şərur-Dərələyəz torpaqlarından ibarət olacağı nəzərdə tutulan general-qubernatorluğun ABŞ nümayəndəsi tərəfindən idarə olunması planlaşdırılırdı.

Əlbəttə, bu planda həm amerikalıların, həm də ermənilərin öz niyyətləri var idi. Amerikalılar hələ nə qədər ki, Qafqaza istədikləri qədər ordu çıxara bilmirdilər, strateji baxımdan əlverişli olan Naxçıvan və Şərur-Dərələyəz general-qubernatorluğunu yaradıb, orada möhkəmlənmək niyyətində idilər. Birinci Dünya müharibəsindən sonra Naxçıvan və Şərur-Dərələyəzin strateji mövqeyi təcridçilikdən geniş beynəlxalq əlaqələrə doğru ilk addımlarını atan ABŞ üçün çox cəlbedici idi. Buradan gələcəkdə, nəinki baycana, Ermənistana, İran və Türkiyəyə, eləcə də bütün Yaxın və Orta Şərqə çox asanlıqla nüfuz etmək olardı. Daşnak Ermənistanı isə hələ 1918-ci ilin noyabrında Osmanlı qoşunları Azərbaycandan çıxdıqdan sonra Naxçıvan və Şərur-Dərələyəz, Eçmiədzin qəzalarını, Qars vilayətini müsəlman əhalisindən təmizləyib, burada öz hakimiyyətini bərqərar etmək istəyirdi. Lakin, adıçəkilən bölgələrdəki türk-müsəlman əhalisinin güclü müqaviməti planın həyata keçməsinə mane olmuşdu. Hətta ingilis komandanlığı müvəqqəti olaraq, Naxçıvanın idarəçiliyini Ermənistana versə də, qəzanın əhalisinin böyük əksəriyyəti Azərbaycan türkləri olduğu üçün daşnak hökuməti bu qərarı həyata keçirə bilməmişdi.

V.Haskelin layihəsi əsasında Naxçıvanda Amerika general-qubernatorluğunun yaradılması yerli azərbaycanlı əhalinin də kəskin etirazına səbəb oldu. Yerli əhali və idarəçilər Naxçıvan, Şərur, Dərələyəz, Vedibasar və Milistan ərazilərinin taleyini Azərbaycandan kənarda təsəvvür etmirdilər. Məqsədlərinə nail ola bilməyən ABŞ nümayəndə heyəti 1919-cu ilin sonu-1920-ci ilin əvvəllərində Naxçıvanı birdəfəlik tərk etmişdir.

Bəhs edilən dövrdə İran hökuməti isə Azərbaycan Xalq Cümhuriyyətinə qarşı ərazi iddialarını davam etdirərək bu dövrdəki şəraiti əlverişli sayıb Naxçıvan bölgəsinə yiyələnməyə, ya da onun ermənilərin əlinə keçməsinə çalışırdı.

M.Mirbabayevin AXC-nə göndərdiyi 1919-cu il 20 dekabr tarixli məktubunda belə bir mühüm fakt açıqlanırdı ki, rəsmi Tehran ingilis və ermənilərin təhriki ilə Naxçıvan və onun ətrafından 60 mindən çox yerli əhalini İrana köçürməyə, bununla da bölgəni zəiflədib, daşnakların planlarının reallaşması üçün münasib şərait yaratmağa meyilli idi [6, s. 198].

Cəmi 23 ay fəaliyyət göstərdikdən sonra Sovet Rusiyası Azərbaycan Xalq Cümhuriyyətini süquta uğratdı və 28 aprel 1920-ci ildə Azərbaycanda bolşevik hakimiyyəti quruldu. 1920-ci il iyul ayının 19-da isə XI Qırmızı işğalçı ordu hissələrinə Naxçıvanı tutmaq əmri verildi. İyulun 27-də gecə XI Qırmızı Ordunun birinci Qafqaz polkundan olan 30 nəfərdən ibarət süvari dəstəsi, iyulun 28-də 106-cı polkun süvari dəstələri Gorus, Şahbuz və Cəhridən keçərək Naxçıvan şəhərinə daxil oldu. 1920-ci il iyulun 28-də diyar fəhlə və kəndlilərinə müraciət edərək, Sovet hakimiyyətinin qurulduğunu və Naxçıvanın Azərbaycan SSR-nin ayrılmaz hissəsi olduğunu elan etdi [12, s. 332].

Naxçıvan bolşeviklərin işğalı altına düşdükdən sonra bir sıra müqavilələrlə onun tarixi ərazilərinə qəsd edildi, bir sıra torpaqları ondan qoparılıb alındı.

1920-ci il noyabrın 29-da Ermənistanda sovet hakimiyyəti qurulduqdan dərhal sonra Azərbaycan torpaqlarının yenidən Ermənistana verilməsi istiqamətində konkret addımlar atılmağa başlandı. RSFSR-lə Ermənistan SSR arasında imzalanan 2 dekabr 1920-ci il tarixli müqavilənin 3-cü maddəsində İrəvan quberniyasının bütün əraziləri, o cümlədən Zəngəzur qəzası Ermənistan SSR ərazisi kimi tanınırdı. Beləliklə, sovet Rusiyası ilə Ermənistan SSR arasında imzalanan sazişə əsasən qədim Azərbaycan torpağı – ulu türk yurdu olan Zəngəzurun Ermənistana verilməsi nəticəsində, Naxçıvanın Azərbaycanın digər əraziləri ilə quru əlaqəsi kəsilmişdir. Halbuki, Zəngəzurun tarixi taleyi daima Azərbaycanla, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanla birbaşa bağlı olmuşdur [4, s. 20].

Ermənistanın bolşeviklərin nəzarəti altına keçməsi ilə əlaqədar Azərbaycan Hərbi İnqilab Komitəsi 1 dekabr 1920-ci ildə bəyanatla çıxış etdi. Naxçıvan əhalisi Azərbaycan Hərbi İnqilab Komitəsinin 1 dekabr 1920-ci il bəyanatına və sonrakı qərarlara kəskin etirazını bildirmişdi. Çünki Zəngəzur Ermənistana verilmişdir.

Bəhs edilən dövrdə 1920-ci il 2 dekabr tarixində Türkiyə ilə Ermənistan daşnak hökuməti arasında da Gümrü müqaviləsi imzalanmışdı. Bu müqaviləyə görə, Aşağı Qarasuyun mənsəbindən başlayaraq Araz çayı, Kekaçın şimalınadək Arpaçayı, daha sonra Qaraxan dərəsi, Tiknisin şərqi – Böyük Kəmlinin şərqi – Qızıldaş – Böyük Ağbaba dağı xətti üzərində müəyyən olunur. Sərhəd zolağının qəti şəkildə təyin edilməsi (imzalanma tarixindən iki həftə sonra) qarşılıqlı komissiya tərəfindən yerində həyata keçiriləcəkdir.

1920-ci ilin sonlarına doğru imzalanan Gümrü müqavilələrinə – RSFSR ilə Sovet Ermənistanı arasında bağlanan müqaviləyə naxçıvanlılar və türklər, Türkiyə ilə Daşnak Ermənistanı arasında bağlanan müqaviləyə isə ruslar və ermənilər etiraz etdilər.

**Moskva və Qars müqavilələri.** Zəngəzur, Naxçıvan və Şərur-Dərələyəz məsələsində Sovet Rusiyasının mövqeyi dəfələrlə dəyişsə də, onun gizli planları var idi və birmənalı şəkildə ermənilərin ideyaları ilə üst-üstə düşürdü. Bolşeviklər nəyin bahasına olursa olsun, keçmiş Rusiya imperiyasının sərhədlərini bərpa etməkdə, özlərindən əvvəlki rus imperializminin ənənələrini bolşevizmin şüarları altında pərdələyərək həyata keçirməkdə israrlı idilər.

Rus-türk konfransı 1921-ci il fevralın 27-də Moskvada öz işinə başladı. Mübahisələr olduğundan konfrans bir həftə müddətinə təxirə salındı. Konfrans təxirə salındığından yaranmış vəziyyətdən çıxmaq üçün Yusuf Kamal daha nüfuzlu sovet xadimləri ilə görüşmək qərarına gəldi. O, martın 6-da İ.Stalin ilə görüşdükdən sonra danışıqlar bərpa edildi. Professor M.Qasımlı yazır ki, konfransın gedişatı zamanı Naxçıvanın Ermənistana verilməsinə çalışan G.Çiçerin bunun mümkün olmadığını gördükdə, Naxçıvanın Azərbaycan ilə qırılmaz əlaqəsini və onun himayəsi altında muxtariyyətdən istifadə etməsini müəyyənləşdirən formulu tapmağı təklif etdi. Türkiyə nümayəndə heyəti həmin formulun ikinci hissəsini aşağıdakı redaktədə verməyi xahiş etdi: "Bu şərtlə ki, Azərbaycan bu protektoratlığı heç bir üçüncü dövlətə güzəştə getməyəcəkdir". Naxçıvanın sərhədləri hərbi mütə-

xəssislər tərəfindən müəyyənləşdirilməli idi. Naxçıvan dairəsi ilə Ermənistan arasında sərhəd məsələsi müzakirə edilərkən Rusiya nümayəndə heyəti bildirdi ki, mütəxəssislərin müəyyənləşdirdiyi xətt İrəvan qəzasının hər hansı bir hissəsində protektoratlığı həyata keçirtmək arzusunda olmayan və son sərhədinin Qurd qapısı olduğunu qəbul edən Azərbaycanın maksimum tələblərini ötüb keçir. Onlar hesab edirdilər ki, Şərur-Dərələyəz dairəsinin sərhədlərini etnoqrafik prinsip ilə müəyyənləşdirmək lazımdır [10, s. 99].

Danışıqlar zamanı Türkiyə nümayəndə heyəti qətiyyət nümayiş etdirərək Şərur-Dərələyəz dairəsinin bütövlükdə Azərbaycanın tərkibində saxlanılması ideyası ilə çıxış etmişdi.

Beləliklə, türk nümayəndə heyətinin təklifi ilə Şərur-Dərələyəz dairəsini Naxçıvan ərazisində saxlamaq qərara alındı. İrəvan dairəsinin mübahisəli hissəsində sərhəd Gömürlü dağdan (6930) başlayaraq Saraybulaq dağlarına (8071), Ararat stansiyasına gedirdi. 1921-ci il martın 16-da RSFSR ilə Türkiyə arasında 16 maddədən və əlavədən ibarət olmaqla müqavilə imzalandı. Üçüncü maddəyə görə, tərəflər razılaşırdılar ki, Naxçıvan vilayəti müqaviləyə 1-ci əlavənin C bəndində göstərilmiş sərhədlərdə Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil edir, bu şərtlə, Azərbaycan bu protektoratı hər hansı bir üçüncü dövlətə güzəştə getməyəcəkdir.

Moskva müqaviləsindən sonra bəzi əraziləri dəqiqləşdirmək üçün Sovet Rusiyası nümayəndəsinin iştirakı ilə Türkiyə ilə üç Cənubi Qafqaz respublikası arasında 13 oktyabr 1921-ci ildə Qarsda müqavilə imzalandı. Müqavilə 20 maddə və 3 əlavədən ibarət idi. Bu müqavilənin bir sıra müddəaları Moskva müqaviləsinin müvafiq maddələri ilə uyğun idi. Ümumilikdə isə, bu sənəddə qeyri-bərabər hüquqlu müqavilələr, zorla qəbul etdirilən müqavilələr və Sevr müqaviləsi rədd edilirdi. Müqavilənin 5-ci maddəsi bilavasitə Naxçıvanın taleyi ilə bağlı idi. Burada yenə də, Naxçıvanın Azərbaycanın tərkibində saxlanması və muxtariyyət verilməsi məsələsi təsbit olunmuşdu. Moskva müqaviləsindən fərqli olaraq, Qars müqaviləsinin 5-ci maddəsində Naxçıvanın statusu məsələsində razılığa gələn tərəflər müəyyən edilmişdi. Bunlar Türkiyə, Azərbaycan və Ermənistan hökumətləri olmuşdular. Müqavilənin bu maddəsində göstərilirdi: "Türkiyə hökuməti, Azərbaycan və Ermənistan Sovet Respublikaları müqavilənin III əlavəsində göstərilən sərhədlər daxilində Naxçıvan vilayətinin Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməsi haqqında razılığa gəlirlər". Göründüyü kimi, bu maddə Moskva müqaviləsinin 3-cü maddəsi ilə müqayisədə qısalmışdır. Yəni, Moskva müqaviləsindən fərqli olaraq, Naxçıvanın statusu və tabeçiliyinə aid Azərbaycanın himayəçilik hüququ haqqında müddəa Qars müqaviləsində əks olunmamışdır. Beləliklə, Moskva və Qars müqavilələri Naxçıvanın statusu və tabeçiliyi məsələsini beynəlxalq müqavilələrlə tam şəkildə həll etdi.

Qars müqaviləsi ilə Naxçıvanın heç bir şərt olmadan Azərbaycan torpağı olduğunu qəbul edən Ermənistan günümüzdə də bu müqavilənin pozulması üçün tələblər irəli sürür. Bölgənin guya bir zamanlar Ermənistan torpağı olduğunu və sonradan türklər tərəfindən işğal edildiyini irəli sürür və bunu bütün dünyaya qəbul etdirməyə çalışırlar [17, s. 24].

**Nəticə.** 1918-1921-cü illərdə baş vermiş hərbi və siyasi proseslərin təhlili sübut edir ki, bu dövrdə baş verən hadisələr Naxçıvan diyarının tarixi coğrafiyasına birbaşa təsirini göstərmişdir. I Dünya müharibəsi və Rusiya imperiyasının süqutundan sonra müstəqilliyini elan etdirilmiş Ararat (Ermənistan) Respublikası Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvana da iddialar irəli sürmüş, bu bölgəni ələ keçirmək üçün həm hərbi-terror, həm də diplomatik-siyasi fəaliyyətlər həyata keçirməyə çalışmışdır. Təbii ki, Naxçıvan iddialarının güclənməsində Qafqaz regionuna daxil olmaq üçün erməniləri bir vasitə olaraq görən kənar qüvvələr, xüsusən ingilislər əhəmiyyətli rol oynamışdılar. Təhlillər göstərir ki, ingilislərin, sonrakı dövrdə isə amerikalıların bölgədə nəzarəti əldə saxladıqları dövrdə Naxçıvan diyarının hüdudları və inzibati bölgüsü ilə bağlı təsəvvürlər qeyri-dəqiq olmuşdur. Nisbətən Azərbaycan Xalq Cümhuriyyətinin idarəçiliyi və Araz-Türk Cümhuriyyətinin mövcud olduğu dövrdə Naxçıvan diyarının hüdudları dəqiqləşmişdir. Məhz bu cür mübarizənin nəticəsi olaraq, bugünkü Naxçıvan Muxtar Respublikasının hüdudları əsasən müəyyənləşmişdir.

## ƏDƏBİYYAT

1. Atnur İ.E. Osmanlı idarəçiliyindən Sovet idarəçiliyinə qədər Naxçıvan (1918-1921). Naxçıvan: Əcəmi, 2013, 496 s.
2. Hacıyev A. Qars və Araz-Türk respublikalarının tarixindən. Bakı: Azərnəşr, 1994, 97 s.
3. Hacıyev İ., Şıxəliyev E., Cəfərli E., Şabanov M. Böyük güclərin Azərbaycanla bağlı geosiyasi maraqlarında Naxçıvanın yeri. Bakı: Mütərcim, 2017, 300 s.
4. Hacıyev Q., Kəlbizadə E., Eyvazov A. Ermənistan: daxili sosial-iqtisadi və siyasi şərait. Bakı: MTM Innovation MMC, 2019, 352 s.
5. Hacıyev İ. İrəvanın ermənilərə verilməsi tarixi-siyasi şəraitində imzalanmış bəzi müqavilələrin bu prosesə təsiri // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. İctimai Humanitar Elmləri Seriyası, 2017, № 3, s. 33-41.
6. Hacıyev İ. Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan. Naxçıvan: Əcəmi NPB, 2010, 392 s.
7. Hacıyev İ. Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici siyasətində Naxçıvan // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. İctimai Humanitar Elmlər Seriyası, 2017, № 1, s. 5-17.
8. Hacıyev İ. Araz-Türk Cümhuriyyəti. Naxçıvan: Əcəmi NPB, 2021, 160 s.
9. Qafarov V. Batum konfransı və Azərbaycan // Tarix və onun problemləri, 2009, № 1-2, s. 81-88.
10. Qasımlı M. Ermənistanın sovetləşdirilməsindən Azərbaycan ərazilərinin işğalınadək erməni iddiaları: tarix – olduğu kimi (1920-1994-cü illər). Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2016, 520 s.
11. Naxçıvan Ensiklopediyası: 2 clddə. II c., təkminləşdirilmiş və yenidən işlənmiş ikinci nəşr, Naxçıvan: Bakanlar Medya, 2005, 380 s.
12. Naxçıvan tarixi: 3 cilddə / Baş məs. V.Talıbov. II c., Naxçıvan: Əcəmi, 2014, 528 s.
13. Əliyeva N. Araz-Türk Respublikasının tarixi coğrafiyası // Mədəniyyətlərin qovuşduğu məkan: Beynəlxalq Elmi Konfransın materialları (22-23 oktyabr 2020). Naxçıvan, 2021, s. 82-87.
14. Səfərli F. Naxçıvan bölgəsinin tarixi coğrafiyası haqqında qeydlər // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası, 2012. № 1, s. 26-31.
15. Şıxəliyev E. İngiltərənin geosiyasi maraqlarında "erməni məsələsi"nin yeri və Azərbaycana təsiri (1917-1920). Naxçıvan: Əcəmi, 2016, 144 s.
16. Şıxəliyev E. Böyük Britaniyanın arxiv materialları əsasında İngiltərənin "erməni" siyasəti və Naxçıvana təsiri (1917-1920-ci illər) // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, 2016, № 5 (79), s. 28-36.
17. Şıxəliyev E. Kars Antlaşması, Nahçıvanla bağlı siyasi meseleler üzerine yeni bir değerlendirme ve ermeni iddiaları // Çankırı Karatekin Üniversitesi, Avrasya Stratejik Uygulama ve Araştırma Merkezi, Uluslararası Avrasya Strateji Dergisi, Çankırı, 2013, 2 c., № 1, s. 15-26.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: aliyevanurlana 71 @gmail.com***

**Nurlana Aliyeva**

## NAKHCHIVAN POLICY OF THE GREAT POWERS AND ITS EFFECT ON THE HISTORICAL GEOGRAPHY OF THE REGION (1918-1921)

In May 1918, a new sovereign state, the Azerbaijan Democratic Republic, was established for the first time in the Muslim East. It lived and functioned for 23 months under difficult and complex conditions. This Republic had to fight in the grip of the political and economic policies of the great powers of the world, the United States, England and France, along with Russia, in order to survive. It resorted to all means to preserve its sovereignty, encountering many complex problems along the way. In 1918, on May 29, when discussing the border issue between Azerbaijan and Armenia, the

National Council of Azerbaijan was forced to issue a decision to transfer Yerevan to Armenia to preserve its sovereignty. It considered this decision to be a historical necessity and an inevitable calamity with a heavy heart. During the period of the Azerbaijan Democratic Republic, neighboring countries put forward several territorial claims against Azerbaijan. At that time, its territory was 113,895.97 square kilometers. There were 97,296.67 square kilometers that were not disputed, and 16,598.30 square kilometers that were disputed. Foremost, on June 4, 1918, a friendship treaty was signed between the Ottoman Empire and the Republic of Azerbaijan to resolve such issues. The second article of the Batum treaty defined the borderline between Azerbaijan, Georgia, and Armenia. According to the Batum treaty, Azerbaijan also suffered territorial losses. On March 12, 1921, the Moscow Treaty was signed. In order to clarify certain territories after the Moscow Treaty, representatives from Soviet Russia, Turkey, and the three South Caucasian republics signed an agreement in Kars on October 13, 1921. Thus, the status of autonomy of Nakhchivan was resolved by the Moscow and Kars treaties.

**Keywords:** *Nakhchivan, Moscow Treaty, Kars treaty, autonomy status, Azerbaijan Democratic Republic, Ottoman Empire, disputed zone, historical geography.*

**Нурлана Алиева**

## НАХЧЫВАНСКАЯ ПОЛИТИКА ВЕЛИКИХ ДЕРЖАВ И ЕЕ ВЛИЯНИЕ НА ИСТОРИЧЕСКУЮ ГЕОГРАФИЮ РЕГИОНА (1918-1921 гг.)

Азербайджанская Демократическая Республика – новое суверенное государство, впервые созданное на мусульманском Востоке в мае 1918 года, функционировало в сложных условиях 23 месяца. Эта республика была вынуждена бороться с политическим и экономическим давлением великих мировых держав – США, Англии и Франции, а также России, и прибегала ко всем средствам для сохранения своего суверенитета, сталкиваясь на этом пути с весьма сложными проблемами. Под давлением этих государств 29 мая 1918 года Национальный Совет Азербайджана при обсуждении пограничного вопроса между Азербайджаном и Арменией был вынужден принять решение о передаче Еревана армянам в целях сохранения своего суверенитета, и с болью в сердце счел это решение «исторической необходимостью» и «неизбежным бедствием». В период существования Азербайджанской Демократической Республики соседние страны предъявили Азербайджану ряд территориальных претензий. На тот момент его площадь составляла 113 895,97 кв. км. Из них 97 296,67 кв. км были бесспорными, а 16 598,30 кв. км – спорными зонами. Для решения подобных вопросов, прежде всего, 4 июня 1918 года был подписан договор о дружбе между Османской империей и Азербайджанской Республикой. Вторая статья Батумского договора определила линию границы между Азербайджаном, Грузией и Арменией. По Батумскому договору Азербайджан также понес территориальные потери. 12 марта 1921 года был подписан Московский договор. После Московского договора Турция 13 октября 1921 года в Карсе при участии представителя Советской России подписала соглашение между тремя южнокавказскими республиками об уточнении некоторых территорий. Таким образом, Московское и Карсское соглашения также определили автономный статус Нахчывана.

**Ключевые слова:** *Нахчыван, Московский договор, Карсский договор, статус автономии, Азербайджанская Демократическая Республика, Османская империя, спорная зона, историческая география.*

*(Tarix elmləri doktoru, dosent Emin Şıxəliyev tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 14.03.2025**
**Son variant 14.04.2025**